# Şərqşünas alimlərimiz Mirzə Kazım bəyə həsr olunan beynəlxalq konfransda iştirak ediblər

26-27 fevral 2019-cu il tarixində Mahaçqala və Dərbənd şəhərlərində Rusiya şərqşünaslıq elminin banilərindən biri, dünya şöhrətli alim, həmyerlimiz Mirzə Məhəmməd Əli Kazım bəyin (1802-1870) həyat və yaradıcılığına həsr olunmuş beynəlxalq konfrans keçirilib.

Dağıstan Humanitar İnstitutu, Sankt-Peterburq Dövlət Universiteti və Rusiya Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən konfransda Rusiyanın Moskva, Sankt-Peterburq, Kazan, Ufa, Nijni Novqorod, Mahaçqala və digər şəhərlərindən, həmçinin Azərbaycan, Türkiyə, Özbəkistan, Yəmən kimi ölkələrdən tarixçi və şərqşünas alimlər iştirak edirdilər. Bu tədbirdə Azərbaycan elmini AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktor müavini akademik Şahin Mustafayev və həmin müəssisənin Ərəb ölkələri



tarixi və iqtisadiyyatı şöbəsinin müdiri, t.ü.f.d. Fərda Əsədov təmsil ediblər.

Konfransda "Mirzə Kazım bəyin türk xalqlarının tarixinə dair tədqiqatları" mövzusunda çıxış edən akademik Ş.Mustafayev bu böyük alimin 19-cu yüzilliyin ilk yarısında Rusiyada türkologiya, tarixşünaslıq və osmanlışünaslıq elmlərinin əsaslarını qoyması, həyatının Kazan dövründə Osmanlı türkləri, Krım və Edil-Volqa tatarları və uyğurlar kimi bəzi türk xalqlarının orta əsrlər tarixinə dair qələmə aldığı bir sıra sanballı əsərləri barədə məlumat verib və onların o dövrün rus və Avropa şərqşünaslığında önəmli yer tutduğunu qeyd edib.

F.Əsədovun məruzəsi Mirzə Kazım bəyin hələ 1850-ci ildə Azərbaycan türkcəsində orijinal mətnini və ingilis dilinə tərcüməsini hazırlayıb nəşr etdirdiyi "Dərbənd-namə" əsərində bəzi mühüm tarixi hadisə və terminlərin izahına həsr olunmuşdu. Hər iki alimin çıxışı iştirakçılar tərəfindən maraqla qarşılanıb və




canlı müzakirələrə səbəb olub.

Akademik Ş.Mustafayev konfransla əlaqədar Dağıstan dövlət televiziyasında hazırlanan proqramda da iştirak edərək, Mirzə Kazım bəyin həyat və yaradıcılığı, onun Rusiya və dünya şərqşünaslıq elminə bəxş etdiyi misilsiz töhfələr haqqında televiziya tamaşaçılarına məlumat verib.